# İMKAN VERƏK... SİRLƏRƏ YOL AÇILSIN



Rövşən Novruzoğlu məşhur addır, tanınan ünvandır. Tanınmağı da, məşhurluğu da onun axıracan açılmamağından onlarca kitabın müəllifi olmağına baxmayaraq, yenə də sirli, özünəxas cazibəsi olan sehirli maraq mühiti ilə bağlıdır. Yəni, Rövşən Novruzoğlu maraqlı adamdır.

Maraqlı olmağın min bir səbəbi var... Birinci səbəbi bundan ibarətdir ki, cəmiyyət səndən həmişə təzə, eşitmədiyi, görmədiyi, bilmədiyi məlumat alır. Bu məlumatların məxəzinin haradan gəldiyi, necə toplandığı çox vaxt oxucu üçün - toplum üçün o qədər də böyük əhəmiyyət kəsb etmir. Bu mənada Rövşən Novruzoğlu həmişə real, qeyri-real faktlarla oxucusunun diqqətini cəlb etməyi, onun maraq dünyasına yönəlik olan adamları öz əsərləri, yaradıcılığı ətrafına cəmləyə bilir.

İkincisi, Rövşən Novruzoğlu yazıçıdır. Ayzek Azimovsayağı yüksək fantaziya sahibidir. Doğrudur, Azimov daha çox fantast təfəkkürlü yazıçıdır. Ancaq Rövşən Novruzoğlu fantaziyasından qidalanaraq, zamanında yığdığı arxiv materiallarının sirlərini asta-asta açmaqla öz düşüncələrini oxucuları ilə bölüşmək imkanındadır.

Üçüncüsü, Rövşən Novruzoğlunun yaradıcılığı daha çox Şərqlə bağlıdır, Şərq isə onu öyrənməyən bilməyən hər hansı bir qələm sahibinə qətiyyən qapı açmır. Yeri gəlmişkən, elə buradaca deməyə lüzum görürük ki, Rövşən Novruzoğlu Şərqi bu qədər yaxından bildiyi halda bizim televiziyalarımızda Şərq üzrə politoloji xidmətləri-ni göstərə bilər. Orijinal düşüncələri ilə cəmiyyəti İŞİD-in, Talibanın, Hizbullahın, Əl-Qaidənin... mahiyyəti ilə qədərincə tanış edə bilər. Bu da onu göstərir ki, Rövşən Novruzoğlunun düşüncəsində Şərq üzrə mənəvi mühitin çarpışması hansı istiqamətə aparır? Ağ qalib gələr, yoxsa qara?

Dördüncüsü, beşincisi, altıncısı... çoxlu belə dəlil mülahizələr gətirməklə Rövşən Novruzoğlunun həm də yaradıcılığının mahiyyətinə işıq sala bilərik.

Bəli, maraqlı olmağın min bir səbəbini aramaqdansa, onun yazıçı fantaziyası ilə həyat həqiqətini birləşdirən yaradıcılıq üslubuna diqqət etmək daha üstün qənaətlər yaradırdı: "Bu diyarda mən həyatımın dörd yol ayrıcında idim. Hər səhər sübh namazında düşdüyüm bu yol ayrıcında dayanıb, məni gözləyən doxsan yaşlı Məhəmmədxan Axundzadə məndən xahiş edirdi ki, onu məscidə qədər ötürüm. Mən onu ötürürdüm. Əvəzində isə qayıdıb deyirdi ki, sənin taleyini oğurlayıblar. Mən - deyirdi, Peyğəmbər əyyamından qalan "Şeytanın kitabı"nı hər səhər vərəqləyirəm. Sənə görə vərəqləyirəm. Sən mənim yerlimsən. İstəmirəm ruhun bu yerlərdə şikəst olsun... Sən ruhu oğurlanmış, arzularına balta çalınmış, taleyi itkin düşmüş yerlimsən... Bunu mənə hər səhər vərəqlədiyim "Şeytanın kitabı" deyir". Bu sətirlər Rövşən Novruzoğlunun "Şeytanın kitabı" romanından əxz olunub. Özü də romanın lap əvvəlidir. Təkcə bu cümlələri oxumaq bəs edir ki, onun yazıçı fantaziyasının hansı ümman dərinliyində olduğunu görəsən.

Rövşən Novruzoğlu haqqında politoloq kimi, siyasi elmlər üzrə yüksək dərəcəli mütəxəssis, o cümlədən, politoloji sahənin dərin bilicisi, bir sözlə, sahənin professoru kimi söz açmaq imkanımı kimsə məndən almır. Amma "Şeytanın kitabı" romanının əvvəlindən əxz etdiyim cümlələrin motivi Tolstoysayağı düşüncənin qüdrətindən xəbər verir. Elə buradaca arzu edərdim. Kaş Rövşən Novruzoğlu kimi müəlliflər üçün imkan olaydı, yol açılaydı, o, "Şeytanın kitabı" romanını axıra çatdıra biləydi.

Lev Tolstoy "Hacı Murad" romanının əvvəlində Ayıdöşəyi bitkisindən danışır. Ayıdöşəyi burada adi bitki deyil, xüsusi obrazdır. Müqavimət obrazıdır. Araba təkərlərinin altında qalmış Ayıdöşəyinin boğazı əzilsə də, araba təkərinin keçdiyi yerdən o tərəfdən təzədən başını qaldırır. Yəni, "ölməmişəm, sağam" deyir. Burada da Rövşən Novruzoğlunun "Şeytanın kitabı" romanının müqavimət gücü üzə çıxır. Uzaq zamandan üzü bəri gələn müdrik müasiri olan varisinin qolundan tutub onu həqiqətə doğru aparır. Məqsəd də budur: sənin ruhunu qorumaq borcumdur. Əsil mahiyyət bundan ibarətdir.

... Rövşən Novruzoğlu çoxlu sayda kitabların müəllifidir. Oxucular üçün xüsusilə əhəmiyyətli olacağını düşünərək ilk öncə 3 kitabının adını çəkmək istərdim: "Əshabi-kəhfə məktub - sürgündə qalan əhli-əyalım var" (Bakı-2020), "Azərbaycan neft strategiyası xarici kəşfiyyatın maraq dairəsində və milli təhlükəsizliyimiz" (Bakı-2001), "Korona virusu Azərbaycan genetikasında" (Bakı-2020)... bu kitabların hər biri bir neçə cilddən ibarətdir, biz sadəcə kitabların adlarını qeyd etdik. "Əshabi-kəhfə məktub" kitabı Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən xüsusi diqqətə alınıb və çapına qayğı göstərilib. Digər kitablar da Azərbaycanın xüsusi orqanları tərəfindən maraqla qarşılanıb. Müvafiq istiqamətlərdə öyrənilməsi üçün təşəbbüslər göstərilib. Bunlar Rövşən Novruzoğlunun yaşarı tərcümeyi-halından fraqmentlərdir, özü də elə fraqmentlərdir ki, hər səhifəsində canlı ürək döyüntüləri hiss olunur. Bu kitablar faktlar savaşıdır. Ağ-qara döyüşüdür, xeyir-şər çarpışmasıdır. Qoy bir qədər qabağa qaçım, hələ neçə il əvvəl Rövşən Novruzoğlunun "SOS - "Manqust" əməliyyatı" sənədli romanını oxudum. Bu romanın hər səhifəsində xüsusi bir çağırış vardı, xəbərdarlıq motivi vardı. Bu gün Azərbaycanda korrupsiyaya nə qədər "yox" deyilirsə, bir o qədər də narkotikə "yox" deyilir. Əsas odur ki, yazıçı kifayət qədər qabaqlamışdı.










*(Davamı 10-cu səhifədə)*

# İMKAN VERƏK... SİRLƏRƏ YOL AÇILSIN

*(Əvvəli 1-ci səhifədə)*

Bir də qayıdaq "Şeytanın kitabı"na. General R.Lapin mənə Fərəh vilayətində ağ bir xalat geyindirdi. "Sən" - dedi, "bu vilayətin həkimisən". (Bu çətin bir məsələ idi, amma bu missiyanı icra etməli idim. Çünki "Moskva bölgüsü"ndə məsləhət belə idi. Mən həkim deyildim. Amma yerli camaatın mənə olan inamı məni əsil həkim etmişdi...). Dünyanın bütün dolaşıq yolları sağalmaz xəstəliklərinin çarəsi, epidemiyaların açarı "Şeytanın kitabı"nda idi, məni Azərbaycan maraqlandırırdı... Onun sabahkı taleyi çox düşündürürdü. Hər gecə oğurlanmış taleyimlə baş-başa qalırdım". Əhsən, Rövşən Novruzoğlu. Bu cümlələri adi düşüncənin sahibi olan, trafaret mühakimə üslubunda danışan, stereotip təfəkkür adamı yaza bilməz. Bunu ancaq sözün həqiqi mənasında ruhu sözlə qol-boyun olub təxəyyül səmasında dolaşan adamın qələmi yaza bilər.

Rövşən Novruzoğlunun hətta bir-iki səhifəlik olsa belə, "Şeytanın kitabı" romanının yazılmış səhifələri elə onun özünün yaratdığı 50 cilddən artıq (çap olunmuş və olunmamış) elmi-kütləvi, bədii-publisistik əsərləri qədər dəyərlidir: "Əlimə keçən "Şeytanın kitabı"nı vərəqləyirdim, Azərbaycanın taleyi, onun sabahkı ruzigarı, qanı qanlara qarışan dostların, müvəqqəti yaşamaq üçün vicdanları çat vermişləri düşünürdüm". Bu "Şeytanın kitabı" romanında əsas obrazın - Rövşən Novruzoğlunun zamanla bağlı düşüncələridir. Çox qədərincə realdır, təbiidir, kifayət qədər həyəcanlıdır və günümüzün adamlarına burada çox sərt bir çağırış var. Bir-birini anlamağa, həyatın diktəsini başa düşməyə çağırış var.

Mən "Şeytanın kitabı" əsərindən oxuduğum cümlələrlə həyəcanlandığım məqamları yaddaşımdan olan bədii təfəkkür məhsulları ilə müqayisəyə çəkmək istədim. Bəli, istədim, ancaq səhifələr çevrildikcə razılaşa bilmədim. Yalnız bircə məqam uyğun gəlirdi. İsa Hüseynovun "İdeal" əsərində yazıçı təxəyyülünün zirvəsini göstərən məqamlar.. həm fantaziya, həm də həqiqət. Paradoks... sofizm... Təxəyyülün sarsılan məqamları var. Görünür, təxəyyül müəyyən sarsılmalara məruz qalmalıdır ki, o, qanad aça bilsin və öz imkanlarını göstərə bilsin: "Şeytanın kitabı" ilə çox ciddi və həm də qəribə nəticələr verən bir araşdırma apardım. Məlum oldu ki, Azərbaycanda (həm də dünya miqyasında) baş verən fəlakətlərə, terror hadisələrinə səbəblərdən birincisi atılan imzalardır. Elə imzalar var ki, imza sahibi anlamır həmin imzada nə yazılır, hansı xətlər, kəsişmələr var. Hər gecə necə gəldi imza atır... Nəticədə nəzərdə tutulan məsələ alınmır və yaxud hər şey əksinə baş verir. Məsələn, ötən əsrdə böyük məsələlərin həllində İ.Stalinə xatırlatdılar ki, imzasını dəyişsin və bunun üçün də ona A.Hitlerin bunkerindən çıxan "Şeytanın kitabı" əsərini verdilər ki, oxusun. Nəticədə Stalin qurduğu işin sonu onun üçün yaxşı olsun deyə, 17 dəfə öz imzasını dəyişməli olub. Onun Azərbaycanla bağlı hazırladığı planların sonunda atdığı imzalarda Şeytan xətləri var idi... Bu kitab İlahi bir kitab idi. İstənilən adamı qorumaq, salamat saxlamaq "Şeytanın kitabı"nda qeyd olunmuşdu, yazılmışdı və s". Bu mətnin diktə etdiyi mahiyyəti həqiqət hesab etsək, onda Rövşən Novruzoğlunun özünü bu mahiyyətin içində görərik. Axı biz demişdik, Rövşən Novruzoğlu maraqlı adamdır.

Bəli, obraz kifayət qədər həyatı özündə ehtiva etməlidir. Görünən və görünməyən tərəfləri ehtiva etməlidir. Hərçənd ki, biz Rövşən Novruzoğlunun obrazını ancaq görünən tərəfdən xarakterizə edirik. Səbəbi də çoxdur.

Birincisi, Rövşən Novruzoğlu kəşfiyyatçıdır və bu söz kimsəni qorxutmasın. O milli təəssübkeşliyin, fəal vətəndaşlığın kəşfiyyatçısıdır. Bu dəyərləri qorumaq naminə o, az qala, yüzəcən cildləri təmin edən qalın kitabların müəllifidir. İkincisi, o təkcə milli təəssübkeşliyin, vətəndaşlığın kəşfiyyatçısı olsaydı, bu gün Azərbaycan yox, Şərq, Avropa mühitində maraq dairəsində olmazdı. O, həm də bəşəri dəyərlərin kəşfiyyatçısıdır. Bu dəyərlərlə o, ən ağır sınaqlardan belə keçməli olur. Maddi təminat naminə müəyyən güzəştlərə gedir, hətta həyatı bahasına olsa belə. Bütün hallarda onun xidmətləri insani dəyərləri qorumaq naminə səfərbər olunur. Nəhayət, Rövşən Novruzoğlu təkcə söz, sənət yolu ilə mübarizə aparmır, geniş arenada tədqiqatı ilə, ən başlıcası, kəşfiyyatçı intuisiyası ilə cəmiyyəti təhdid edən güc mərkəzlərini göstərmək əzmindədir.

Rövşən Novruzoğlunun ədəbi-publisist tədqiqatlarında dünyanın çox böyük ərazisi diqqət mərkəzində saxlanılır. O, Türkiyəni, İsraili, Fransanı, Amerikanı, İtaliyanı (təqribən 50 ölkəni) birləşdirən və ayıran məqamları politoloji intuisiya ilə yaradıcılığının tədqiqat mərkəzinə çevirir.









Mənim üçün maraqlıdır, bəlkə başqa oxucular üçün də maraqlı oldu. Rövşən Novruzoğlunun tədqiqatlarında dünya siyasətinin işıq-qaranlıq müstəvisində bir neçə məqamın şərhinə rast gəldim: "Ötən əsrin 80-ci illərində Əl-Qaidə terror təşkilatı Pakistanın Prezidenti Pərviz Müşərrəfə ölüm hökmü çıxarmışdı. Onun üçün terrorçu Məhəmməd Ata adlı birisi də ayrılmışdı. Onun keçdiyi yolun xəritəsini təşkil etdik. Pakistanın Bakıdakı səfirliyində bir yığıncaq oldu və həmin xəritəni orda təhvil verdik. Bu xəritə hər şeyi dəyişdi. Bir həftə ötmüş Məhəmməd Ata həbs olundu... Səfirlik isə bizi aldatdı. Bu iş üçün Pakistan dövlətinin ayırdığı mükafatı vermədi". Bu təəssüratın müəllifi Rövşən Novruzoğludur. Siyasi elmlər üzrə professor kimi tanınır. Politoloji xidmətləri çıxışlarından çox kitablarında reallaşdırır. 40-dan çox kitabın müəllifidir. Milli təhlükəsizlik məsələləri üzər ekspertdir, beynəlxalq terrora və korrupsiyaya qarşı strateji araşdırmalar mərkəzinin direktoru kimi ictimai fəaliyyət göstərir. Zənnimcə, bu ünvan kifayət qədər təminat verir ki, onun sözlərinin mötəbərliyinə axıracan inanaq.

Rövşən Novruzoğlu kifayət qədər vətənini sevən, Azərbaycana dişini qıcayan qüvvələrə qarşı mübarizə əzmini yaradıcılığı ilə üzə çıxara bilir. Onun düşüncələrindən əxz etdiyimiz məqamlar da oxucularımız üçün maraqlı ola bilər. Xüsusilə İran və Azərbaycan münasibətlərinin indiki dönəmində bu daha çox əhəmiyyətlidir: "Araşdırma materiallarında nəzərimizdən keçdi ki, İran İslam Respublikası ərazisində milliyyətcə erməni olan bir neçə qrup var. Bu qruplar Xorasanda dəfn olunmuş İmam Rzanın məzarına qarşı və böyük ziyarətgahlardan sayılan Məşhəd şəhəri istiqamətində terror hadisələrinə hazırlaşır. Qeyd edim ki, bu terror hadisələri azərbaycanlıların adına yazılmalı olacaq. Və yaxud İranda terror olunmuş nüvə alimlərinin qətlində, eləcə də general Qasım Süleymaninin ölümündə iştirak edən erməni əsilli "ASALA"nın üzvləri olub. İstintaq isə birtərəfli aparılmadığından erməni əsillilər kənarda qalıb, onlar ittiham olunmayıb. Bu istiqamətdə də biz iranlı dostlarımıza xəritələr vermişdik. Amma baxılmadı... Və yaxud terror hadisələri baş verdikdən sonra biz dəvət olunduq, lakin görüşdən imtina etdik və s". Bəzən Rövşən Novruzoğlunun politoloji intuisiyaları nə qədər qabarıq görünsə də, yazıçı təxəyyülü bu görünən tərəfləri öz əhatəsinə alır. Bütün bunlara baxmayaraq, Rövşən Novruzoğlu açıq gözlü, dünyada baş verən hadisələrin qanunauyğunluqlarını, hər hansı ictimai-siyasi hadisənin mənbəyini və mənsəbini görə bilən ekspertdir.Zənnimcə, belə düşüncə sahiblərini həmişə diqqətdə saxlamaq, onların nəinki dəqiq, həyati faktlarını, hətta təxəyyül imkanlarını da öyrənmək faydalı olardı.

Kimsəyə sirr deyil ki, Türkiyə dünyanın bir çox qüvvələrinin gözünə tikan kimi batır. Türkiyəni müxtəlif cəhətlərdən təhdid etmə imkalar təkcə rəqibləri yox, həm də düşmənləri tərəfindən izlənilir. Rövşən Novruzoğlu Türkiyə ilə bağlı onu gələcəkdə gözləyə biləcək "su terroru" təhlükəsindən xəbərdar etmək istəyir və bu yöndə tədqiqat apardığını bildirir. Onun tədqiqatlarında mübahisəli İran düşüncəsi Avropa mütəxəsisslərinin nöqteyi- nəzərində adı altında tədqiq olunur. Ümumən Şərq məsələləri Rövşən Novruzoğlunun tədqiqatları üçün həmişə əsas obyekt olub. Yuxarıda demişdik, Rövşən Novruzoğlu maraqlı adamdır. İndi onun bütün kitablarının adlarını çəksək, şəkillərini də bu yazının içərisinə daxil etsək, bu, müəyyən həcm imkanlarını ötüb keçər.

Rövşən Novruzoğlunun gücün xarakterizə edən bir neçə tərəf var; yazıçıdır, buna görə güclüdür. Politoloqdur, buna görə ikiqat güclüdür. Ümumdünya, xüsusilə Şərq aləmi ilə bağlı tarixi, ədəbi məlumatları qədərincə öyrənib, əxz edib, buna görə güclüdür. Ən başlıcası, qeyri bir kimsəyə yox, yalnız özünə məlum olan yollarla ən nadir sirlərin bilicisidir - buna görə güclüdür.

Bəli, Rövşən Novruzoğlu maraqlı adamdır. Çoxlarımıza məlum olmayan sirlərin bilicisidir. İmkan verək, yol açaq, qoy bildiklərini bu dünya üçün axıracan açsın.

***Əli Rza Xələfli***
***13.10.2021***